| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Qanunlar |
| **QƏBUL EDİLDİYİ TARİX** | 03.12.2021 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 409-VIQD |
| **ADI** | “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 31.12.2021, Nəşr nömrəsi: 286), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31.12.2021, Nəşr nömrəsi: 12, Maddə nömrəsi: 1308) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 01.01.2022 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 380.040.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 12202112030409 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 06.01.2022 |

**“Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 1, maddə 19; 2001, 12, maddə 736; 2004, 2, maddə 57, 3, maddə 133, 8, maddə 599, 10, maddə 787; 2005, 8, maddə 686; 2006, 12, maddə 1005; 2007, 4, maddə 322; 2009, 7, maddə 517, 11, maddə 878; 2010, 5, maddə 375; 2011, 2, maddə 71, 6, maddə 478; 2013, 11, maddə 1272; 2017, 11, maddə 1977; 2018, 2, maddə 148, 11, maddə 2194, 12 (I kitab), maddə 2487; 2019, 4, maddə 580, 12, maddə 1884; 2020, 7, maddə 856) 5-ci maddəsinin 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. birinci cümlədən “vəkil (vəkillər) tərəfindən” sözləri çıxarılsın;

1.2. aşağıdakı məzmunda 2-ci abzas əlavə edilsin:

“Vəkil qurumu vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmayan vəkil (vəkillər) tərəfindən yaradılmış, bu qurumda fəaliyyət göstərən vəkillə hüquqi yardım göstərilən şəxs arasında müqavilə münasibətlərini əlaqələndirən hüquqi şəxsdir.”.

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLIYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 dekabr 2021-ci il
409-VIQD